

# Cahana sığmayan dahi





Xaçmaz Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi və "Nəsimi ili" ilə bağlı bir sıra tədbirlər keçirilib.

Mayın 10-da Xaçmaz şəhərindəki "Çənlibel" parkında İmadəddin Nəsiminin abidəsinin açılışı olub.

Xaçmaz rayon Mərkəzi Kitabxanasında "Bu cahana sığmayan şair" adlı dəyirmi masa təşkil olunub. Bildirilib ki, Nəsimi ana dilində yazdığı şeirlərlə milli ədəbiyyatımızı zənginləşdirib. Onun həmçinin ərəb və fars dillərində yaratdığı əsərlər



şairin adının vətənindən uzaqlarda, bütün Yaxın Şərqdə şöhrətlənməsinə səbəb olub.

Mərkəzi kitabxana daha bir tədbiri şəhərdəki Şəxsiyyətlər muzeyində təşkil edib, burada Nəsiminin 650 illiyinə həsr edilmiş mütaliə həftəsi keçirilib.

MKS-nin Seyidli kənd kitabxana filialı kənd Diyarşünaslıq klubu ilə birlikdə "Ədəbiyyat üfüqlərində doğmuş eşq günəşi – İmadəddin Nəsimi" mövzusunda məlumat günü keçirib. Xudat şəhər kitabxana filialında, eləcə də Qaradağlı, Dədəli, Nağıoba, Padar Xaspoladoba, Qaraqurtlu, Ləcət kitabxana filiallarında və Uzunoba kənd orta məktəbində də məlumat günləri təşkil olunub. Əbilyataq kənd kitabxana filialının əməkdaşları E.Mövlanov adına kənd tam orta məktəbində ədəbi-bədii gecə keçirilib.

***

Quba rayon Heydər Əliyev Mərkəzində "Muzeylər və Nəsimi irsi" proqramı üzrə ekskursiyalar həftəsi təşkil olunub. Təhsil şöbəsinin təşkilatçılığı ilə şəhər 1, 2, 3, 4, 5, 6, 7 saylı tam orta məktəblərin və İqriq, Alekseyevka, I Nügədi, II Nügədi, Qımılqazma, Qəcərzeyid kənd tam orta məktəblərinin müəllim və şagirdləri, eləcə də Quba "ASAN Xidmət" Mərkəzinin əməkdaşları və könüllüləri, bir sıra idarə, müəssisə və təşkilatların əməkdaşları və ictimaiyyət nümayəndələri ekskursiyalarda iştirak ediblər.

Heydər Əliyev Mərkəzində "Nəsimi işığında" mövzusunda ədəbi-bədii tədbir isə Quba "ASAN Xidmət" Mərkəzi ilə birgə təşkil olunub. İştirakçılar əvvəlcə "Nəsimi" bədii filmini izləyiblər. Mərkəzin direktoru Elza Orucova çıxış edərək bildirib ki, "Nəsimi ili" çərçivəsində müxtəlif tədbirlərin təşkili nəzərdə tutulur.



Quba rayon B.Səfəroğlu adına Mədəniyyət Mərkəzində "İmadəddin Nəsimi 650" adlı dəyirmi masa təşkil edilib. Mərkəzin direktoru Ramiz Ramazanov çıxış edərək deyib ki, ölkəmizdə "Nəsimi ili" elan edilməsi bu böyük şəxsiyyətin yaradıcılığını, xalqımıza verdiyi böyük töhfələri yenidən dərk və təhlil etmək üçün fürsət yaradıb. Sonra tədbir məktəblilərin ifasında Nəsiminin qəzəllərindən ibarət bədii kompozisiyalarla davam etdirilib.

Xucbala kənd klubunda gerçəkləşən tədbirdə Nəsimi poeziyası haqqında məktəblilərə məlumat verilib. Küsnət kənd klubu və kənd kitabxanasının birgə təşkil etdiyi dəyirmi masada da məktəblilər iştirak edib. Talabıqışlaq kənd Folklor klubunun təşəbbüsü ilə məktəblilər arasında bədii qiraət müsabiqəsi təşkil olunub. 20-yə yaxın iştirakçı öz istedadını nümayiş etdirib. Qaliblərə fəxri fərman və hədiyyələr təqdim olunub.

Alpan kənd Folklor evinin kənd məktəbinin müəllim və şagird kollektivinin iştirakı ilə keçirdiyi tədbirdə Nəsiminin həyat və yaradıcılığından söz açılıb, rübailəri haqqında fikir mübadiləsi aparılıb. MKS-nin Qorxmazoba kənd kitabxanasının təşkilatçılığı ilə kənd tam orta məktəbində "İmadəddin Nəsiminin yaradıcılığı", Amsar kənd kitabxanasında isə "Məşələ çevrilmiş nəğməkar" mövzusunda tədbirlər keçirilib.

Mərkəzi kitabxananın Oxuculara xidmət şöbəsində "Zərrə mənəm, günəş mənəm" adlı şeir gecəsi keçirilib. "Nəsimi ili" adlı sərgi nümayiş olunub.

Regional idarənin təşəbbüsü və MKS-nin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Nəsiminin 650 illiyinə həsr olunmuş "Oxu bayramı" keçirilib. Tədbir çərçivəsində müxtəlif başlıqlı kitab və fotolardan ibarət stendlər qurulub.

Rayon Uşaq musiqi məktəbində keçirilən yubiley tədbirində Nəsiminin həyat və yaradıcılığı haqqında məlumat verildikdən sonra şagirdlər xalq mahnıları və rəqsləri ifa ediblər.





***

Qusar rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə "Məndə sığar iki cahan..." adlı dəyirmi masa, sərgi və ədəbi-bədii kompozisiya keçirilib.

Mərkəzi kitabxananın şəhər, habelə Əniqoba, Gündüzqala və s. kənd kitabxana filiallarında əlamətdar yubileylə bağlı tədbirlər təşkil olunub.

AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutu, Qusar Rayon İcra Hakimiyyəti, rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Nəsimi poeziyasında kamil insan modeli" mövzusunda elmi-praktik konfrans keçirilib.



Eynibulaq və Balaca Həmyə kənd kitabxana filiallarında Nəsiminin yubileyi münasibətilə müxtəlif səpkili tədbirlər təşkil olunub.

***



Şabran rayon Mərkəzi Kitabxanasında "Ey müsəlmanlar, mədəd, ol yar pünhan ayrılır" adlı şeir gecəsi keçirilib. MKS-nin Rəhimli, Aygünlü, Çölquşçu, Surra, Dəvəçi, Dağbilici, Ağalıq, Günəşli, Sarvan, Pirəmsən, Gəndov, Ağbaş kənd kitabxana filialları Nəsiminin 650 illiyi münasibətilə, dəyirmi masa, inşa müsabiqəsi, şeir gecəsi və s. tədbirlər təşkil ediblər.

Şabran Tarix-Diyarşünaslıq Muzeyində "Əsrlərin sədası – İmadəddin Nəsimi" adlı tədbir keçirilib. Şabran şəhərindəki Ə.Xaqani adına Poeziya evində də Nəsiminin 650 illiyi münasibətilə tədbir təşkil olunub.

***

Siyəzən rayon Mərkəzi Kitabxanasında "İmadəddin Nəsimi 650" adlı sərgi və dəyirmi masa keçirilib. Mərkəzi kitabxana rayon Peşə məktəbində əlamətdar yubileylə bağlı sərgi təşkil edib.

MKS-nin Gilgilçay qəsəbə, Sədan, Tuğay, Məşrif, Zarat,

Heydər Əliyev Mərkəzində Mikayıl Müşfiq adına 2 saylı tam orta məktəbin şagirdlərinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə mərkəzin direktoru Ramilə Seyidova, təhsil ocağının Azərbaycan dili və ədəbiyyat müəllimi Bəxtiyar Seyidov, mərkəzin əməkdaşı Aygün İsayeva çıxış edərək 2019-cu ilin "Nəsimi ili" elan edilməsini Nəsimi yaradıcılığına, onun irsinə töhfə olmaqla yanaşı, bütövlükdə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə verilən dəyər kimi yüksək səciyyələndiriblər.

***

Mədəniyyət Nazirliy və regional idarələrinin iştirakı ilə ikinci dəfə gerçəkləşən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Xaçmaz şəhərində keçirilən tədbirində də "Nəsimi ili" ilə bağlı şairin kitablarının yer aldığı stend nümayiş etdirilib.

Heydər Əliyev adına parkda keçirilən festival böyük coşqu yaradıb. Tədbir iştirakçıları Qusar Dövlət Ləzgi Dram Teatrının "Diyar" nənələr qrupunun təqdimatında cəhrədə yun əyirmək, xalça toxumaq, səhənglə su daşımaq və başqa bu kimi ənənəvi məişət işlərini əks etdirən təqdimatları izləyiblər. Xaçmaz və Şabran xalq teatrlarının hazırladığı ədəbi-bədii kompozisiyalar, "Xınayaxdı" folklor kollektivinin ifasında rəqs nümunələri festivalın proqramına rəng qatıb. Heydər Əliyev adına parkda regional mədəniyyət idarələrinin çadır-guşələri qurulub, şəhər və rayonların mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənət nümunələri təqdim olunub. Festivalın konsert proqramında regional idarələr üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivlərinin çıxışları da alqışlarla qarşılanıb.



Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 18-19.